*21 fevral Beynəlxalq Ana dili Günüdür*

# Türkün dili tək sevgili, istəkli dil olmaz!



Əsrlərin arxasından sızıb gələn, yolumuza işıq saçan doğma bir haray, əvəzsiz bir dil həmişə bələdçimiz olub. Bu dil bizə həqiqəti, gerçəkliyi yalandan, dostu düşməndən, doğmanı yaddan seçməyi öyrədib. "Ömür yolu" adlandırdığımız bu səfərdə yol yoldaşımız olub doğma dilimiz! Qəlbimizi, ruhumuzu oxşayıb.

Xalqımız əsrlər boyu ana dilində danışmaq, ana dilində yazmaq və bu dili yaşatmaq, saflığını qorumaq uğrunda inamla, əzmlə, yorulmadan mübarizə aparmış və istədiyinə nail olmuşdur. Böyük Füzuli deyib ki, mən ərəb dilində ona görə yazıram ki, bu dildə təhsil almışam; fars dilində ona görə yazıram ki, bu dildə yazmaq dəbdədir; Azərbaycan dilində ona görə yazıram ki, bu mənim ana dilim, doğma dilim, qəlb sirdaşımdır.

Tarixin unutduqlarını, dolaşıq saldıqlarını heç vaxt unutmayan, min illərin üstündən körpü salıb bu günümüzə gəlib çatan, bizə soyumuzu, əslimizi, kökümüzü nişan verən doğma, şirin dilimizdir Azərbaycan dili!

Bəzən pıçıltı ilə, bəzən sızıltı ilə, bəzən hayqırtı ilə dərdimizi, sevincimizi dünyaya tanıdan əvəzsiz Azərbaycan dilim!

Dilimizin inkişafı, qorunması, fəaliyyət dairəsinin genişlənməsi kimi tarixi missiyanın yerinə yetirilməsində Heydər Əliyevin müstəsna və əvəzsiz rolu vardır.

Heydər Əliyev və Azərbaycan dili! Bu iki ad XX əsrin 60-cı illərindən həmişə qoşa çəkilmişdir. Çünki Heydər Əliyev Azərbaycan dilinə təkcə adi ünsiyyət vasitəsi kimi baxmamış, onu həmçinin dövlət siyasətinə çevirmiş, bir an da olsa, diqqətdən yayındırmamışdır.

Digər milli sərvətlərimiz kimi ana dilimizin də yüksək səviyyədə, ədəbi şəklində qorunub saxlanılmasında, gələcək nəsillərə sağlam şəkildə çatdırılmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rolu böyükdür.

**Beynəlxalq Ana Dili Günü münasibətilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində "Türkün dili tək sevgili, istəkli dil olmaz" mövzusunda tədbir keçirildi.**

**Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə dilimizin zənginliyini əks etdirən slayd təqdim olundu. V-IX sinif şagirdlərindən ibarət xorun ifasından sonra şagirdlərimiz M.Füzulinin, M.Şəhriyarın, B.Vahabzadənin ana dili ilə bağlı yazdıqları şeirləri böyük həvəslə söylədilər.**

**Aparıcılar öz əsərləri ilə Azərbaycan dilinin saflığını qoruyan, yaşamasını təmin edən Xətaidən, M.Füzulidən, M.P.Vaqifdən, F.Köçərlidən, Ü.Hacıbəyovdan, C.Məmmədquluzadədən, B.Vahabzadədən, onların böyük əməlindən, dahi Heydər Əliyevin dilimizə verdiyi yüksək qiymətdən söz açdılar. Şagirdlərin "O olmasın, bu olsun" əsərindən göstərdikləri səhnəcik tamaşaçılar tərəfindən maraqla qarşılandı. Məktəbin 5 a sinif şagirdləri "Naxçıvani" milli rəqsi ilə tədbiri yekunlaşdırdılar. Tədbirin sonunda Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin direktoru Sevinc Rzayeva, Azərbaycan dili və ədəbiyyat kafedrasının müdiri Sədaqət Əhmədova öz ürək sözlərini dedilər.**

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**